**Məlahət Soltan qızı Hüseynova**

**UOT: 338.47:656; JEL:R41; O18; L91.**

# Azərbaycanın nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi problemlərinə yanaşmalar və onların xüsusiyyətləri

***Xülasə***

*Məqalədə Azərbaycanın nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi problemlərinə yanaşmalar və onların xüsusiyyətləri tədqiq edilmişdir. Bunun üçün nəqliyyat-logistika sisteminin iqtisadiyyatın inkişafında rolu araşdırılmış və əhəmiyyəti baxılmışdır. Nəqliyyat layihələrinin regional və beynəlxalq səviyyədə səmərəsi təhlil olunmuşdur. Nəqliyyat-logistika infrastrukturunun yaradılmasının vacibliyinə diqqət yetirilmişdir. Azərbaycanda nəqliyyat sisteminin müasir vəziyyəti və göstəriciləri təhlil olunmuşdur. Nəqliyyat sektorunda bir sıra mühüm göstəricilər üzrə müqayisəli yanaşmalar baxılmış və ehtiyatlara dair müəllif mövqeyi bildirilmişdir. Nəqliyyat sektoruna yönəldilən əsaslı vəsait qoyuluşu və investisiyalar araşdırılmışdır. Əsas fondların mövcud vəziyyəti təhlil olunmuşdur. Son illərdə həyata keçirilən nəqliyyat layihələrinin strateji rolu açıqlanmışdır. Azərbaycanın nəqliyyat-logistika sisteminin tranzit üstünlükləri təhlil edilmişdir və qiymətləndirilmişdir. Böyük İpək Yolunun üstünlükləri baxılmış və ölkəmizin bu marşrutda mövqeyi verilmişdir. Yaxın perspektivdə nəqliyyat-logistika sisteminin genişləndirilməsi və infrastrukturunun inkişaf etdirilməsi məsələlərinə baxılmışdır. Məqalənin sonunda nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi problemlərinin həlli üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürməkdir.*

***Acar sözlər:*** *nəqliyyat sektoru, logistika sistemi, nəqliyyat-logistika sistemi, nəqliyyat-logistika sisteminin problemləri, nəqliyyat-logistika sisteminin xüsusiyyətləri, nəqliyyat-logistika sisteminin inkişaf perspektivləri.*



## Giriş

Müasir dövrdə iqtisadi inkişaf prosesləri dərinləşdikcə, milli iqtisadiyyatın dünya inteqrasiya proseslərində fəallığının yüksəldiyi bir şəraitdə daha strateji vəzifələr və prioritetlər ortaya çıxır. Bu istiqamətlərdən biri də nəqliyyat-logistika sistemidir. Nəqliyyat-logistika sistemi iqtisadi inkişaf proseslərinin şah damarı kimi baxılır, belə ki, ölkələrarası ticarət-iqtisadi əlaqələrin genişləndirilməsində, milli iqtisadiyyat sahələrinin inkişaf proseslərinin balanslaşdırılmasında bu sistemin rolu kifayət qədər böyükdür. Nəqliyyat – logistika sisteminin səmərəli olması bütövlükdə ölkə iqtisadiyyatının düzgün inkişaf istiqamətində irəliləməsinin əsas göstəricilərindən biri kimi baxıla bilər. Nəqliyyat xidmətlərinin çevikliyi, logistika infrastrukturunun səmərəli olması hesabına təsərrüfat və biznes subyektlərinin fasiləsiz rejimdə məhsuldar fəaliyyət göstərmələri üçün zəruri xammal və avadanlıqlarının vaxtında çatdırılması, tədarük edilməsi, nəqlinin təşkili mümkün olur. Bu proseslərdə daha səmərəli və optimal mexanizmlərin işlənib hazırlanması, tətbiq edilməsi xərclərin minimuma endirilməsinə və son nəticədə istehsal olunan məhsulların, göstərilən xidmətlərin maya dəyərinin azaldılmasına münbit şərait formalaşdırır. Belə olduğu təqdirdə isə bazara çıxarılan məhsul və xidmətlər analoqları ilə müqayisədə daha üstün rəqabət xüsusiyyətlərinə malik olurlar və bazarda möhkəmlənirlər. Nəqliyyat-logistika sisteminin maksimum səmərəli fəaliyyət göstərməsi hesabına təsərrüfat və biznes subyektlərinin rentabellik və gəlirlilik səviyyəsinin formalaşdırılması və təmin edilməsi potensialı artırılmış olur.

Önəmli amillərdən biri də - Azərbaycanın Böyük İpək Yolunun üzərində yerləşməsi və

*©Məlahət Soltan qızı Hüseynova Sumqayıt Dövlət Universiteti, "Biznesin təşkili və menecment" kafedrası i.f.d., dos.E-mail: malahat.huseynova.sdu@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

əsas beynəlxalq qovşaqlarından biri kimi mühüm əhəmiyyət kəsb etməsidir. 1998-ci ilin sentyabrın 7-8-də Bakıda 9 ölkənin, o cümlədən Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan və Qırğızıstan dövlət başçıları, həmçinin 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı nəticəsində tarixi İpək yolunun bərpası ilə bağlı beynəlxalq konfrans baş tutumuş və sonda Avropa İttifaqının TRASEKA proqramı üzrə "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış, eyni zamandan Bakı Bəyannaməsi qəbul olunmuşdur [3]. Ölkəmiz bu proseslərdə önəmli funksiyaları yerinə yetirir və tarixi İpək Yolunun bərpa edilməsində kifayət qədər fəallıq göstərir, genişmiqyaslı nəqliyyat layihələrinin təşəbbüskarı və maliyyə donoru kimi çıxış edir. Qeyd edək ki, Azərbaycan Avropa ilə Asiya arasında əsas nəqliyyat dəhlizi kimi qiymətləndirilir və dünyanın əksər ölkələrində fəaliyyət göstərən iri nəqliyyat şirkətləri, nəqliyyat-logistika kompaniyaları və ümumilikdə transmilli kompaniyalar üçün böyük maraq kəsb edir. İlk dövrlərdə Bakı-Tbilisi-Qars dəmir yolu üzərindən 5 mln. ton, perspektivdə isə 17 mln. ton və gələcəkdə daha iri həcmdə yüklərin daşınması perspektivləri ölkəmizin nəqliyyat-logistika sisteminin cəlbediciliyini daha da artırır və beynəlxalq əməkdaşlıq imkanlarını xeyli gücləndirir. Azərbaycanın beynəlxalq nəqliyyat qovşağı kimi mühüm mərkəzlərindən birinə çevrilməsi potensialı, ilk növbədə ölkəmizin Avropa ilə Asiyanın kəsişmə nöqtəsində yerləşməsi və bu baxımdan iki qitə ölkələri arasında iqtisadi-ticarət və nəqliyyat-logistika əlaqələrinin genişləndirilməsi imkanları ilə izah olunur.

**Azərbaycanda nəqliyyat-logistika sisteminin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi**



Azərbaycanda nəqliyyat-logistika sisteminin müasir vəziyyətinin obyektiv olaraq təhlil edilməsi və qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu sahədə olan ehtiyatların və inkişaf imkanlarının dərindən öyrənilməsi, üzə çıxarılması və onlardan səmərəli istifadə edilməsi üçün zəruri tədbirlərin görülməsi vacibdir. Azərbaycan Avrasiyada mühüm tranzit və logistika mərkəzi kimi artıq dünyada yüksək potensiala malik ölkə səviyyəsində qiymətləndirilir və bu amillər baxımından, nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi məqsədilə kompleks təhlillərin aparılması zərurəti diqqət çəkir. Ölkəmizin beynəlxalq nəqliyyat qovşağında yerləşməsi, əvvəldə qeyd etdiyimiz kimi Böyük İpək Yolu marşurutunun əsas kəsişmə və tranzit nöqtələrinin Azərbaycan ərazisində olması, beynəlxalq əhəmiyyətli nəqliyyat-logistika marşurutlarının burada birləşməsi və şaxələnməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan artıq Çinin təşəbbüsü ilə reallaşdırılan "Bir kəmər, bir Yol" layihəsinin önəmli iştirakçılarından birinə çevrilməkdədir. Bundan əlavə, Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq dəhlizlərinin yaradılması istiqamətində dünya səviyyəli layihələrin reallaşdırılmasında və təşəbbüslərin irəli sürülməsində Azərbaycan konkret mövqeyə malikdir və həyata keçirilən işlərdə böyük pay sahibi kimi diqqət çəkir. Belə ki, ölkəmiz öz ərazisində Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi çərçivəsində öhdəsinə düşən işləri yüksək keyfiyyətlə və səmərəli şəkildə reallaşdırmışdır. Bunun sayəsində ölkəmiz siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik təkcə Şimal-Cənub nəqliyyat dəhlizi yox, həm də digər strateji layihələrin fəal iştirakçısı olmaqla, büynəlxalq nəqliyyat dəhlizlərində əsas maraqlı tərəflərdən biri kimi çıxış etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzləri səviyyəsində qiymətləndirilməkdədir. Azərbaycanda şaxələnən və birləşən nəqliyyat-logistika qovşaqları Avrasiyada yerləşən onlarca dövləti bir-birinə qovuşduran məkan kimi diqqət çəkməkdədir. Beləliklə, biz ölkəmizin Avrasiyada kifayət qədər böyük bir ərazidə yerləşən müxtəlif dövlətlərin nəqliyyat-logistika sistemlərini birləşdirən mərkəzə çevrildiyinin əyani şahidiyik [1]. Digər tərəfdən, yeni nəqliyyat layihələrinin və infrastruktur şəbəkəsinin yaradılması hesabına, həçminin Bakı-Tiblisi-Qars

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dəmiryolu beynəlxalq marşurutunun imkanlarından səmərəli istifadə etmək sayəsində ölkəmizin çoxlu sayda dünya ölkələri ilə ticarət-iqtisadi əlaqələrinin şaxələndirilməsi, yük dövriyyəsinin artırılması, biznes və sahibkarlıq subyektlərinin daha çox və fəal şəkildə xarici ticarət fəaliyyəti ilə məşğul olması mühiti formalaşdırılmışdır. Eyni zamanda, Ələt Beynəlxalq Dəniz Ticarət limanının fəaliyyətə başlaması ilə ölkəmizdən keçən tranzit yüklərin həcminin dəfələrlə artacağı və milyonlarla ton həcmində olacağı proqnozlaşdırılır. Azərbaycanda nəqliyyat infrastrukturunun müasirliyi və innavativliyinin təmin edilməsi ön plana çıxmaqdadır. Real vəziyyət göstərir ki, Azərbaycan həm öz ixrac potensialını yüksəltmək, eyni zamanda ölkə ərazisindən keçən tranzit nəqliyyat logistika dəhlizlərinin daha səmərəli fəaliyyətini təmin etmək məqsədilə bir çox ölkələrlə, əsasən Türkiyə, Gürcüstan, İran və Rusiya ilə əlaqələrin gücləndirilməsində maraqlıdır. Bundan əlavə, Azərbaycan İran və Rusiyada sərmayələr yatırmaqla, logistik mərkəzlərin təşkilində maraqlı tərəf kimi çıxış edir. Buna misal olaraq, “Şimal-Cənub” nəqliyyat dəhlizinin səmərəliliyinə nail olmaq üçün İranın Astara şəhərində 4 terminalın inşasını həyata keçirir və bu terminallarda neft, taxıl, knteynerlərin emalı, həmçinin ümumi təyinatlı terminallar fəaliyyət göstərəcəkdir. Bunlarla yanaşı artıq, Qazaxıstan tərəfdən Xəzər dənizinin sahilində yerləşən Aktau şəhərində ölkəmizin istehsal və logisitika mərkəzi yaradılmışdır və bu həm də ixrac siyasətinin gücləndirilməsinin vacib istiqamətlərindən hesab olunur. Bu mərkəzin səhmlərinin 25 %-i Azərbaycvan dövlətinə məxsusudur və həmin istehsal və logisitika mərkəzi ölkəmizdən kənardan fəaliyyət göstərtən ilk logistika mərkəzi kimi əlamətdardır [4]. Eyni zamanda, Azərbaycan şirkətləri və biznes subyektləri xeyli potensiala malik olan Rusiya bazarlarından məhsuldar istifadənin təmin edilməsi üçün nəqliyyat-logisitika mərkəzlərinin yaradılmasında fəallıq göstərməkdədirlər. Burada maraqlı bir məqam nəqliyyat-logistika sistemi əhatəsinin kifayət qədər genişlənməsi ilə bağlıdır. Məsələn, təkcə “Şimal-Cənub” nəqliyyat dəhlizinin yaradılması hesabına Hindistandan Rusiyaya, həmçinin Şimali və Qərbi Avropaya istiqamətlənən yüklərin çatdırılma müddətinin azaldılması təmin olunacaqdır, belə ki, hazırda Suveyş kanalı vasitəsilə bu yüklərin çatdırılması 60 günədək baş verir, “Şimal-Cənub” nəqliyyat dəhlizinin istismara verilməsindən sonra bu müddət cəmisi 14-20 gün təşkil edəcəkdir [6].

Son illərdə ölkəmizdə nəqliyyat sektorunun inkişafı və logistika infrastrukturunun genişləndirilməsi ilə bağlı görülən işləri daha əyani təsəvvür etmək və obyektiv reallıqlar əsasında baxmaq üçün bir sıra göstəricilərin təhlilini aparmışıq. Şəkil 1-də 2014-2018-ci illərdə Azərbaycanda nəqliyyat üzrə bir sıra əsas makrogöstəricilərin dinamikası verilmişdir.

**Şəkil 1.**

**Azərbaycanda nəqliyyat üzrə bir sıra əsas makrogöstəricilərin dinamikası (mln. manat)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/.**



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Şəkil 1-in təhlili əsasında qeyd etmək olar ki, 2014-2018-ci illərdə ölkəmizin nəqliyyat sektorunun bir sıra mühüm göstəriciləri üzrə dinamik artım təmin olunmuşdur. Məsələn həmin dövrdə bu sektorda yaradılan əlavə dəyərin həcmi 90 %-ə qədər artmış və 2018-ci ildə 5 mlrd. manatdan bir qədər çox təşkil etmişdir. Ümumi mənfəətin həcmi isə 2 dəfədən bir qədər çox təşkil etmiş və 2018-ci il üzrə 4,1 mlrd. manata yaxın olmuşdur, bu halda xalis mənfəə isə 3,1 mlrd. manat səviyyəsində qeydə alınmışdır. Şəkil 2-də 2014-2018-ci illərdə Azərbaycanda nəqliyyat və qeyri-nəqliyyat sektorunda yük daşınmasının ümumi həcminin dinamikası təhlil olunmuşdur və baxılan dövr ərzində artım cəmisi 3,3 % təşkil etmişdir, belə ki, 2014-cü ildə bu sektorda yük daşınmasının ümumi həcmi 244,8 mln. ton olduğu halda, 2018-ci ildə cəmisi 252,9 mln. ton səviyyəsində qeydə alınmışdır. Bizə görə, bu sektora yatırılan investisiyalar və verilən strateji önəm müqabilində yük daşınması həcminin daha çox artırılması imkanları olmuşdur və onlardan səmərəli istifadə edilməsi təmin olunmalıdır.

**Şəkil 2.**

**Azərbaycanda nəqliyyat və qeyri-nəqliyyat sektorunda yük daşınmasının ümumi həcminin dinamikası (mln. ton)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/.**

Şəkil 3-də 2018-ci il üzrə Azərbaycanda yük daşınmasının nəqliyyat növlərinə görə strukturu əks olunmuşdur və buradan qeyd etmək olar ki, ölkəmizdə yük daşımaların əhəmiyyətli hissəsi, yəni 65 %-i avtomobil nəqliyyatının payına düşür. Dəmir yolu, dəniz və hava nəqliyyatı üzrə yük daşımalarının həcminin artırılması istiqamətində daha çox işlər və tədbirlər görülməsi vacibdir.

**Şəkil 3.**

**Azərbaycanda yük daşınmasının nəqliyyat növlərinə görə strukturu, yekuna görə (%, 2018)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/.**

Şəkil 4-də 2014-2018-ci illərdə Azərbaycanda nəqliyyat və qeyri-nəqliyyat sektorunda yük dövriyyəsinin dinamikası təhlil edilmişdir və baxılan dövr ərzində artım qeydə alınmamışdır, əksinə 2015 və 2016-cı illərdə azalma tendensiyası baş vermiş, lakin sonrakı illərdə - 2017-2018-ci illərdə bu tendensiyanın qarşısı alınmış və artım tempi bərpa olunmağa başlamışdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 4.**

**Azərbaycanda nəqliyyat və qeyri-nəqliyyat sektorunda yük dövriyyəsinin dinamikası (mln. ton-km)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/.**

Məlumdur ki, Böyük İpək Yolu marşrutu üzrə nəqliyyat dəhlizinin imkanlarının genişlənməsi və buradakı potensialdan məhsuldar istifadə olunması bir çox dünya dövlətlərinin, o cümlədən Azərbaycanın milli iqtisadi maraqları dairəsindədir. Buna görə də ölkəmizdə həmin dəhliz üzrə nəqliyyat-logistika imkanlarının obyektiv dəyərləndirilməsi və səmərəli istifadə olunması məsələlərinə strateji yanaşma formalaşmışdır.

**Azərbaycanda nəqliyyat-logistika sisteminin inkişaf istiqamətləri və perspektivləri**

Ölkəmizdə nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi baxımından görülən işlərin obyektiv qiymətləndirilməsindən yanaşsaq, son illərdə həyata keçirilən strateji layihələrin böyük əhəmiyyətini qeyd etmək mümkündür. Burada söhbət təkcə müasir avtomobil yollarının çəkilməsindən və infrastrukturun yaradılmasından getmir, eyni zamanda beynəlxalq nəqliyyat qovşaqlarının kəsişməsində kifayət qədər səmərəlilik təşkil edən yeni nəqliyyat-logistika infrastrukturunun yaradılması məsələsi aktuallığı ilə ön plana çıxmaqdadır. Belə ki, Ələt qəsəbəsində Beynəlxalq Dəniz Limanın tikilməsi, genişləndirilməsi sürətlə davam etdirilməkdədir və həmçinin, bu limanın bazasında iri həcmli logistik mərkəzin formalaşdırılması gözlənilir. Burada müxtəlif strateji istiqamətlər üzrə zəruri xammal axınlarının hərəkətinin tənzimlənməsi, ölkəmizdə və regionda fəaliyyət göstərən müəssisələrin xammal təminatının gücləndirilməsi üçün bazanın yaradılması nəzərdə tutulmuşdur. Amma, bunlarla belə, ölkəmizdə nəqliyyat-logistika sisteminin inkişafı hələ başlanğıc mərhələsindədir və dünya təcrübəsinə uyğun olaraq bu istiqamətdə iqtisadi, təşkilati, institusional, hüquqi mexanizmlərin formalaşdırılması və təkmilləşdirilməsi tədbirlərinin görülməsi tələb olunur. Məsələn, ölkəmizdə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi prosesləri çərçivəsində ortaya bir sıra problemlər çıxmışdır və bu problemlər sırasında istehsal infrastrukturunun yaradılması ilə bərabər, onun fasiləsiz, həmçinin lazım olan səviyyədə xammal təminatı problemləri yaranır. Belə ki, müxtəlif iqtisadiyyat sahələrində və iqtisadi rayonlarda nəqliyyat-logistika mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi problemləri mövcuddur. Ölkəmizdə əsas qeyri-neft sənaye sahələrinin yerləşdiyi Bakı və Sumqayıtda, o cümlədən, ölkənin ən iri qeyri-neft sektorlarından biri kimi - kimya və neft-kimya sektorunun Sumqayıt sənaye mərkəzində yerləşən iri texnoloji emal qurğularının daxili xammal resursları ilə yanaşı, kənardan tələb olunan xammal və materiallarla təchizatına ciddi ehtiyac vardır. Yaxud, əsasən regionlarda cəmlənmiş kənd təsərrüfatı və aqrar sektorda nəqliyyat-logistika sistemindən daha çox çeviklik tələb olunur. Bütü bunların təmin olunması üçün nəqliyyat sektoruna, nəqliyyat logisitka potensialının gücləndirilməsinə yeni investisiyaların cəlb edilməsi vacibdir. Ölkənin statistik bazasında və



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

rəsmi nəşrlərində logistika potensialının yaradılmasına yönəldilən investisiyaların uçotu hələlik aparılmadığından, ümumilikdə 2014-2018-ci illərdə Azərbaycanda nəqliyyat sektorunda əsas kapitala yönəldilən investisiyaların həcminə baxdıqda görmək mümkündür ki, bu sahəyə yönəldilən investisiyaların həcmi 2014-cü illə müqayisədə sonrakı illərdə azalmış və 2018-ci illərdə 1923 mln. manat səviyyəsində qeydə alınmışdır, bütün bunlar öz əksini şəkil 5-də tapmışdır.

**Şəkil 5.**

**Azərbaycanda nəqliyyat sektorunda əsas kapitala yönəldilən investisiyaların həcmi (mln. manat)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/.**

Şəkil 6-da isə 2014-2018-ci illərdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinın Azərbaycan hissəsində yük daşımalarının ümumi həcminin dinamikası təhlil olunmuşdur və göründüyü kimi təhlilin apardığı dövr ərzində yük daşımalarının ümumi həcmi heç də artmamış, əksinə azalmışdır, yəni 2014-cü ildə yük daşımalarının həcmi bu strateji nəqliyayt dəhlizinin Azərbaycan hissəsində 59,2 mln. ton həcmində olmuşdursa, 2018-ci ildə cəmisi 52,7 mln. tona yaxın təşkil etmişdir.



**Şəkil 6.**

**Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinın Azərbaycan hissəsində yük daşımalarının ümumi həcminin dinamikası (min. ton)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/.**

Nəqliyyat dəhlizinin verdiyi geniş imkanlardan səmərəli istifadə edilməsi hesabına ölkəmizdə müasir dövrün çağırışlarına uyğun şəkildə nəqliyyat-logistika mərkəzinin inkişaf etdirilməsi imkanları yüksək qiymətləndirilir və təsadüfi deyildir ki, dünyanın güclü nəqliyyat və logistika şirkətləri artıq Azərbaycanda daha geniş şəkildə və əhatədə fəaliyyət göstərməkdə maraqlı tərəflər kimi çıxış etməkdədirlər. Məsələn, dünyanın nəhəng logistika mərkəzlərindən biri olan "COSCO Shipping Lines" şirkətinin Azərbaycanda fəaliyyətə başlaması buna misal ola bilər və bu şirkətin mütəxəssislərinin gəldiyi qənaətə görə, Transqafqaziya və Mərkəzi Asiya logistika, həmçinin daşımaçılıq planında ən qısa və səmərəli yol Azərbaycandan keçir. Çindən Qazaxıstan və Avropaya daşınan yüklərdə Azərbaycan mühüm coğrafi mövqeyə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

malikdir, bundan əlavə, Azərbaycanda dəmiryolu şəbəkəsinin genişlənməsi Çindən gələn malların Bakıdan Türkiyənin Mersin şəhərinə daha əlverişli şərtlərlə çatdırılmasına imkan verir [5]. Bütün bu amillər yaxın perspektivdə ölkəmizin nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi üçün əsaslı zəmin kimi qiymətləndirilməlidir. Artıq dövlət tərəfindən bu sahənin inkişafına xüsusi önəm verilməkdədir. Təsadüfi deyildir ki, dövlət başçısı sahibkarları xaricdə logistika mərkəzləri yaratmağa çağırıb və bununla bağlı olaraq Prezident İlham Əliyev demişdir: “Biz bazarları, indiki durumu və perspektivləri çox dəqiq təhlil etməliyik və yeni bazarlara çıxış əldə etməliyik. Biz xarici bazarlarda öz mövqelərimizi möhkəmləndirməliyik və bunun üçün logistika mərkəzlərinin yaradılması xüsusi əhəmiyyət daşıyır” [7]. bu bir daha onu göstərir ki, ölkəmizdə nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi prioritetləri kifayət qədər yüksək səviyyədə baxılmaqda və qiymətləndirilməkdədir.

**Nəticə**

Qlobal iqtisadi çağırışlar və strateji yol xəritələrinin həyata keçirildiyi bir şəraitdə Azərbaycanda nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Srateji nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsinin iqtisadi problemlərinin sistemli şəkildə araşdırılması və bunlarla bağlı daha səmərəli həlli yollarının müəyyənləşdirilməsi tələb olunur, bu proseslərdə bir sıra məsələlər xüsusi önəm kəsb edir:

- ⇨ Ölkəmizdə nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsi üzrə mütərəqqi dünya təcrübəsindən çıxış etməklə, adaptivliyi ilə fərqlənən nəqliyyat-logistika sistemlərinin mütərəqqi modellərinin fəal tətbiqi mexanizmləri müəyyənləşdirilməsi və onların tətbiqinin səmərəli şəkildə həyata keçirilməsi təmin olunmalıdır;
- ⇨ Müasir iqtisadi və nəqliyyat-logistika çağırışları nəzərə alınmaqla, Azərbaycanda nəqliyyat-logistika sisteminin inkişafının strateji istiqamətlərinin müəyyənləşdirilməsi, bunun üçün ölkəmizdə nəqliyyat-logistika sisteminin qanunvericilik bazasının gücləndirilməsi, nəqliyyat-logistika sisteminin inkişafında “dövlət-özəl sektor” əməkdaşlığının əsas istiqamətlərinin səmərəliliyinin artırılması və uzunmüddətli strateji hədəflər nəzərə alınmaqla nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsi tədbirləri görülməlidir.

**Ədəbiyyat**


1. Azərbaycan Avrasiyada mühüm tranzit və logistika mərkəzidir. 23 Avqust 2019. http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/dig-r-x-b-rl-r/item/23516-azaerbaydzan-avrasiyada-muhum-tranzit-vae-lozhistika-maerkaezidir.
2. Azərbaycan Avropa ilə Asiya arasında dəhlizdir və hazırda iri logistika mərkəzinə çevrilməkdədir. http://privatization.az/index.php/az/niy-az-rbaydzan/16-menyu-az/138-az-rbaycan-avropa-il-asiya-aras-nda-d-hlizdir-v-haz-rda-iri-logistika-m-rk-zin-cevrilm-kd-dir.
3. Azərbaycanın - Avrasiyanın nəqliyyat qovşağı. http://diaspor.gov.az/azerbaijan/11.php.
4. Azərbaycanın logistika siyasəti Avrasiyada güclü dəyişdirici faktora çevrilir 10.11.2019. https://denizxeber.az/2019/11/10/az%C9%99rbaycanin-logistika-siyas%C9%99ti-avrasiyada-guclu-d%C9%99yisdirici-faktora-cevrilir/.
5. Dünyanın nəhəng logistika şirkəti Azərbaycanda fəaliyyətə başladı. 19 Dekabr, 2019. http://xeber.im/xeber/60501/dunyanin-neheng-logistika-sirketi-azerbaycanda-fealiyyete-basladi-.html.
6. Xarici ekspert: "Azərbaycan vacib nəqliyyat və logistika habına çevrilir". 11 Noyabr, 2019. https://finans.az/xeber/xarici-ekspert-azerbaycan-vacib-neqliyyat-ve-logistika-habina-cevrilir.html.
7. Prezident Əliyev sahibkarları xaricdə logistika mərkəzləri yaratmağa çağırıb. http://interfax.az/view/701122/az.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Малахат Солтан кызы Гусейнова***

***Подходы к проблемам развития транспортно-логистической системы Азербайджана и их особенности***

***Резюме***

*В статье рассматриваются подходы к проблемам развития транспортно-логистической системы Азербайджана и их особенности. С этой целью изучена роль и рассмотрена важность транспортно-логистической системы в развитии экономики. Анализирована эффективность транспортных проектов на региональном и международном уровнях. Подчеркнута важность создания транспортно-логистической инфраструктуры. Оценено состояние и показатели транспортной системы Азербайджана. Рассмотрены сравнительные подходы к ряду ключевых показателей в транспортном секторе и дано авторское мнение по ним. Исследованы инвестиции в транспортный сектор, а так же текущее состояние основных средств в данной сфере. Выявлена стратегическая роль транспортных проектов в последние годы. Исследованы транзитные преимущества транспортно-логистической системы Азербайджана. Учтены преимущества Великого Шелкового пути и оценено положение нашей страны с этой точки зрения. Рассмотрены вопросы расширения транспортно-логистической системы и развития инфраструктуры в ближайшей перспективе. В конце статьи подготовлены рекомендации и даны предложения по решению проблем развития транспортно-логистической системы страны.*

***Ключевые слова:*** *транспортный сектор, логистическая система, транспортно-логистическая система, проблемы транспортно-логистической системы, особенности транспортно-логистической системы, перспективы развития транспортно-логистической системы.*



***Malakhat Soltan Huseynova***

***Approaches to the problems of development of the transport and logistics system of Azerbaijan and their peculiarities***

***Summary***

*Approaches to the problems of development of the transport and logistics system of Azerbaijan and their peculiarities are considered in the article. The role and importance of the transport and logistics system in the development of the economy is studied for this purpose. The effectiveness of transport projects at the regional and international levels is analyzed. The importance of creating transport and logistics infrastructure are investigated. The state and indicators of the transport system of Azerbaijan are investigated too. Comparative approaches to a number of key indicators in the transport sector and author's opinion on them are given. Investments in the transport sector, as well as the current state of fixed assets in this area are studied. The strategic role of transport projects in recent years is identified. Transit advantages of transport and logistics system of Azerbaijan are investigated. The advantages of the Great Silk Road taken into account and the situation of our country are assessed from this point of view. Issues of expansion of transport and logistics system and infrastructure development in the short term are considered. Recommendations and proposals to solve problems of development of the transport and logistics system of the country are given at the end of the article.*

***Key words:*** *transport sector, logistics system, transport and logistics system, problems of transport and logistics system, peculiarities of transport and logistics system, perspectives of development of transport and logistics system.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 27.01.2020.***
***Çapa qəbul olunub: 31.01.2020.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*